# Heydər Əliyev bəşər tarixinə bənzəri olmayan Qurtuluş dahisi olaraq daxil olub

*(Əvvəli ötən saylarımızda)*



Azərbaycanı uçurumun kənarına gətirən "tarixi" 18 may və 7 iyun 1992-ci il hadisələri, yəni Ali Sovetin sədrliyinə Heydər Əliyevin seçilməsinə, onun prezident seçkilərində iştirakına hər cür zorakı yol ilə mane olmaq və s. hadisələr respublikanı həqiqətən uçurumun lap qırağına gətirmişdi. Səriştəsiz İsa Qəmbər, Ə.Elçibəy iqtidarı və onların dəmkeşləri Əli Kərimov, Pənah Hüseynov, onların səriştəsiz, şərəfsiz, qabiliyyətsiz simalarından ərköyün uşaq kimi ilham alan Sürət Hüseynov, Əlikram Hümbətov, Rəhim Qazıyev və başqaları Azərbaycanı uçuruma aparmaqla özlərinin doğma xalqına düşmən mövqedə olduqlarını bir daha təsdiq etdilər.

Nə yaxşı ki, xalqımız müdriklik nümayiş etdirdi, uçurumun kənar nöqtəsindən öz əbədi xilaskarını hakimiyyətə dəvət etdi. Müdrik xalqın xilaskar oğlu xalqını uçurumun kənarında qoya bilməzdi. Bu xilaskarlıq missiyası öz şüurlu həyatının 60 ilini xalqının tərəqqisinə sərf etmiş qurtuluş dahisi, ümummilli liderimiz, bənzərsiz tarixi şəxsiyyət cənab Heydər Əliyevə qismət oldu.

Qurtuluş günü bu gündən daha parlaq, aydın görünü. Qurtuluş dahisi Heydər Əliyevin 1993-cü ilin iyun ayından uğurla, enişli-yoxuşlu çətin yollardan keçərək start götürən siyasi kursu, bu gün prezident İlham Əliyevin gərgin fəaliyyəti nəticəsində xalqımızın, dövlətimizin günü-gündən tərəqqisinə, inkişafına, dünyada mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Qurtuluş gününün bəhrələrini hər birimiz öz həyatımızda görürük və gələcək nəsillər də min illərlə görəcəklər.

1992-1993-cü illərdə Azərbaycan ziyalıları, xalqımız AXC-Müsavat ikihakimiyyətliyinin çürük siyasətinin nəticəsi olaraq müstəqilliyimizi itirmək təhlükəsi yarandıqda müstəqilliyimizi qoruyub möhkəmləndirmək, müasir, müstəqil, demokratik, hüquqi, dünyəvi Azərbaycan dövlətini qurub-yaratmaq üçün Heydər Əliyevə müraciət etdilər. Qurtuluş günündən - 15 iyun 1993-cü ildən başlanan uğurlu xalq-Heydər Əliyev yolu Azərbaycanı 10 il ərzində geniş inkişafa gətirib çıxardı. 2003-cü ildən isə Ulu öndərin şah əsəri olan Azərbaycan dövlətini XXI əsrin ortalarına doğru yüksək surətlə irəliyə doğru aparmaq, Heydər Əliyev siyasətini davam etdirmək üçün respublikamızın, xalqımızın bu günü və gələcəyi üçün həlli vacib məsələləri həll etmək, Qurtuluş günündən başlanan yolu davam etdirmək üçün xalqımızın istək və arzularını, dövlətimizin gələcək tərəqqisini çox böyük uzaqgörənliklə görərək bu məqsədə nail olmaq üçün 2003-cü il səhətində yaranmış problemlərlə əlaqədar olaraq prezidentliyə namizədliyindən imtina edərək 2003-cü il oktyabr ayının 1-də xalqına, seçicilərinə müraciət ünvanlamışdır.

"Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var yazan müdrik rəhbərimiz qeyd etmişdir ki, bu planları, işləri siyasi varisim İlham Əliyev sizin dəstəyinizlə, köməyinizlə yerinə yetirmək qabiliyyətinə malikdir. İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləıri İlham Əliyev başa çatdıra biləcək, mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" uzqgörən fəlsəfi fikirlərini xalqına müraciətində bildirmişdir.

1992-1993-cü illərdə xalqın Heydər Əliyevə müraciəti 15 iyun 1993-cü ildən başlayaraq müstəqilliyimizin qorunub möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin təmin edilməsi ilə nəticələndi.

2003-cü il oktyabr ayının 1-də müdrik rəhbərimiz, bənzərsiz dünyəvi siyasi xadim Qurtuluş dahisi Heydər Əliyevin xalqa müraciəti isə 2003-cü ilin oktyabrın 15-dən etibarən onun siyasətinin davamı olaraq Ulu öndərin şah əsəri olan müstəqil Azərbaycanın iqtisadi, siyasi müstəqilliyini daha da möhkəmləndirdi, sosial tərəqqiyə nail olunan, ölkəmizdə demokratikləşmə, hüquqi, dünyəvi dövlət quruculuğu uğurla davam etdirilərək yüksək zirvələr fəth etdi, ölkəmizdə həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq ictimai-siyasi sabitlik tam şəkildə bərqərar oldu.

Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında-cənubi Qafqazda, rgionda və dünyada, MDB məkanında özünə layiq olan yerdə uğurla irəliyə doğru inkişafa nail oldu. Qurtuluş dahisinin siyasətini uğurla davam etdirən dünyəvi siyasi xadim hakimiyyətinin ilk 5 ilində xalqın ehtimalını yüksək səviyyədə doğruldaraq, Heydər-xalq, xalq-Heydər fəlsəfəsini, vəhdətini, birliyini daha da möhkəmləndirərək iqtidar-xalq, xalq-iqtidar fəlsəfəsini, birliyini qurub-yaradaraq növbəti prezident seçkilərində-2008-ci il, 2013-cü il, 2018-ci illərdə xalqımızı uğurlu gələcəyə doğru aparan xalqımızın lideri, bənzərsiz dünyəvi siyasi xadim İlham Əliyev qələbə qazandı. İlham Əliyevin qələbəsi Azərbaycan xalqının qələbəsidir, müdrik rəhbərimiz Heydər Əliyevin yüzilliklərə, minilliklərə hesablanmış dünyəvi xarakterli siyasətinin qələbəsidir.

Cənab İlham Əliyevin dövlət başçısına, siyasi liderə məxsus olan güclü zəkası, güclü enerjisi və müdrikliyi, çevikliyi, uzaqgörənliyi ondadır ki, o, gələcək problemləri, çətinlikləri görərək xalqımızı və dövlətimizi çətinliklərdən çıxmağa hazırlayır.

Pandemiya dövründə prezidentimizin həyata keçirdiyi xilaskarlıq missiyasını həyata keçirdi. Dünyada baş verən iqtisadi böhranlar, bahalaşma fonunda Azərbaycan öz iqtisadi inkişafını nəinki qoruyub saxlamış, hətta belə yüksək surətlə inkişaf etmişdir, xalqımızın sosial vəziyyəti daha da yaxşılaşmışdır.

Azərbaycan 2003-cü ildən çox böyük surətlə inkişaf edərək cənubi Qafqazın, regionun və dünyanın ən sabit təhlükəsiz ölkəsinə çevrilmişdi. İqtisadi, sosial tərəqqiyə, hərbi qüdrətə, beynəlxalq miqyasda çox böyük nüfuza malik dövlətə çevrilmişdir. Təməli xalqımızın çağırışı, tələbi ilə qoyulmuş dünənimiz, bu günümüz və gələcəyimiz üçün Heydər-xalq fəlsəfəsinin məntiqi nəticəsi olaraq 1993-cü ilin 15 iyunundan-Qurtuluş günündən və 2003-cü ildən xilaskarlıq, quruculuq, inkişaf, tərəqqi yolunun nəticəsi olaraq ölkəmizdə formalaşmış iqtidar-xalq-ordu birliyinin yüksək zirvələr fəth etməsinin ölkəmizin qüdrətlənməsinə, ərazi bütövlüyümüzün, suverenliyimizin təmin edilməsinə hesablanmış siyasətin məntiqi nəticəsidir ki, 30 ildən artıq işğal altında olan doğma Qarabağımız erməni işğalından azad edildi. Azərbaycan prezidentinin qətiyyəti sayəsində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini - 822, 853, 874 və 884 saylı qətnamələrini 44 günlük Vətən müharibəsində icra edildi.

Bu gün müdrik, uzaqgörən, dünyəvi siyasi xadim, xalqımızın xilaskarı, XXI əsrin ən görkəmli siyasi xadimi, lideri, yenilməz Ali Baş Komandan, xalqımızın Milli Qəhrəmanı, Vətən müharibəsi Qəhrəmanı cənab İlham Əliyevin rəhbərliyi ilə işğal edilmiş ərazilərdə çox böyük quruculuq işləri həyata keçirilir. Azərbaycan regionun və dünyanın lider dövlətləri sırasına ən layiqli yerdə dayanıb uğurla XXI əsrin ortalarına doğru gedir.

Bəli doğrudan da Qurtuluş gününün bəhrəsini, nəticələrini bu gündən baxanda daha aydın görürük və bəhrəsini hiss edirik. Bütün uğurlarımızın mənbəyində Qurtuluş günündən yenidən start götürən Heydər Əliyevin siyasəti və bu siyasətin davamı olaraq 2003-cü ildən uğurla həyata keçirilən prezident cənab İlham Əliyevin uğurlu, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasəti dayanır.

**Dəmir QURBANLI,**
**Heydər Əliyev siyasi kursunun təbliğatçısı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Azad Azərbaycan" qəzetinin şöbə müdiri, "Qızıl Qələm", Azərbaycan Bayrağı", "Xalqın nüfuzlu ziyalısı" media mükafatları laureatı, ehtiyatda olan zabit**